**“Gömrük işi sahəsində cinayət işləri və digər hüquqpozmalar üzrə məhkəmənin qüvvəyə minmiş qərarına əsasən müsadirə edilmiş, habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi malların və nəqliyyat vasitələrinin dövlət mülkiyyətinə keçirilməsi Qaydaları”nın təsdiq edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 1.2.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Gömrük işi sahəsində cinayət işləri və digər hüquqpozmalar üzrə məhkəmənin qüvvəyə minmiş qərarına əsasən müsadirə edilmiş, habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi malların və nəqliyyat vasitələrinin dövlət mülkiyyətinə keçirilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

**Bakı şəhəri, 19 mart 2014-cü il**
**№ 89**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2014-cü il 19 mart tarixli 89 nömrəli qərarı ilə
təsdiq edilmişdir

# Gömrük işi sahəsində cinayət işləri və digər hüquqpozmalar üzrə məhkəmənin qüvvəyə minmiş qərarına əsasən müsadirə edilmiş, habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi malların və nəqliyyat vasitələrinin dövlət mülkiyyətinə keçirilməsi

## Q A Y D A L A R I

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 327.2-ci maddəsinə əsasən hazırlanmışdır və gömrük işi sahəsində cinayət işləri və digər hüquqpozmalar üzrə məhkəmənin qüvvəyə minmiş qərarına əsasən müsadirə edilmiş (bundan sonra - müsadirə edilmiş), habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi malların və nəqliyyat vasitələrinin dövlət mülkiyyətinə keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Bu Qaydalar yalnız aşağıdakı mallara və nəqliyyat vasitələrinə (bundan sonra - mallar) şamil edilir:

1.2.1. müsadirə edilmiş mallara;

1.2.2. şəxsin dövlətin xeyrinə imtina etdiyi xarici və son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallara.

1.3. Müsadirə edilmiş və ya şəxsin dövlətin xeyrinə imtina etdiyi mallar müvafiq olaraq, gömrük işi sahəsində cinayət işləri və digər hüquqpozmalar üzrə məhkəmənin və ya mallardan dövlət xeyrinə imtina edilməsi üçün icazənin verilməsinə dair gömrük orqanının qərarı qüvvəyə mindiyi gündən dövlət mülkiyyətinə keçirilmiş hesab edilir.

### 2. Malların qəbul edilməsi

2.1. Müsadirə edilmiş, habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi mallar Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin “Azərtermi-nalkompleks” Birliyi tərəfindən (bundan sonra - Birlik) qəbul edilir.

2.2. Müsadirə edilmiş, habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi mallar Birliyin müəyyən etdiyi anbarlara aşağıdakı sənədlər təqdim edilməklə yerləşdirilir:

2.2.1. mallar haqqında məlumatlar göstərilməklə, gömrük orqanının müraciəti;

2.2.2. malların müsadirə edilməsi haqqında məhkəmənin qüvvəyə minmiş qərarının surəti və ya gömrük orqanının mallardan dövlətin xeyrinə imtina edilməsi üçün icazə verilməsinə dair qərarının surəti.

2.3. Müsadirə edilmiş, habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi mallar anbara qəbul edilərkən, iki nüsxədə bu Qaydaların əlavəsi ilə müəyyən edilmiş “Malların anbara qəbul edilməsi haqqında Akt” tərtib olunur. Həmin akt malları təhvil verən gömrük orqanının vəzifəli şəxsi və Birliyin səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır və Birliyin möhürü ilə təsdiq edilir. Aktın bir nüsxəsi gömrük orqanının vəzifəli şəxsinə verilir.

2.4. Müsadirə edilmiş, habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi mallar anbara qəbul edilərkən qüsurlu olduqda, bu barədə qəbuletmə aktında müvafiq qeydlər aparılır.

2.5. Birlik anbara qəbul olunmuş malların uçotunu aparır.

## 3. Yekun müddəalar

3.1. Dövlət mülkiyyətinə keçirilmiş mallar açıq gömrük hərraclarında satılır.

3.2. Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan mallar barəsində sərəncam verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları" ilə tənzimlənir.

***Qeyd.*** *Bu Qaydalarda dəyişikliklər Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırıldıqdan sonra edilə bilər.*[1]

**"Gömrük işi sahəsində cinayət işləri və digər hüquqpozmalar üzrə məhkəmənin qüvvəyə minmiş qərarına əsasən müsadirə edilmiş, habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi malların və nəqliyyat vasitələrinin dövlət mülkiyyətinə keçirilməsi Qaydaları"na əlavə**

**Malların anbara qəbul edilməsi haqqında**

**AKT**

"___"____________ 20_____il                                                 № _________

Aşağıda göstərilən müsadirə (dövlətin xeyrinə imtina) edilmiş mallar ____________________________ anbarına təhvil verildi:

| Sıra №-si | Malın adı | Miqdarı | Müşayiət sənədləri | Qeyd |
|---|---|---|---|---|
| | | | | |

Təhvil verdi ________________________________________________ _________________________
(adı, soyadı, vəzifəsi)          (imza və tarix)

Qəbul etdi ________________________________________________ _________________________
(adı, soyadı, vəzifəsi)          (imza və tarix)

M.Y.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 01 may 2015-ci il tarixli **130** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 5, maddə 616)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 01 may 2015-ci il tarixli **130** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 5, maddə 616)** ilə "Gömrük işi sahəsində cinayət işləri və digər hüquqpozmalar üzrə məhkəmənin qüvvəyə minmiş qərarına əsasən müsadirə edilmiş, habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi malların və nəqliyyat vasitələrinin dövlət mülkiyyətinə keçirilməsi Qaydaları"nın sonuna yeni məzmunda "Qeyd" əlavə edilmişdir.